# *PEDAQOGİKA*

## Pandemiya dövrü: distant təhsil və texnologiyaların tədrisə tətbiqi

**Sevil Cəfər qızı Zeynalova**
*ADPU-nun Ağcabədi filialının*
*Riyaziyyat, informatika və onların tədrisi texnologiyası*
*kafedrasının baş müəllimi*
**E-mail:** zeynalova.s1971@gmail.com

**Rəyçilər:** p.ü.f.d., dos. G.V. Sultanova,
p.ü.f.d., dos. Ə.B. Qədimova

**Açar sözlər:** pandemiya, distant təhsil, yüksək texnologiyalar, rəqəmsallıq, virtual auditoriyalar, tərs sinif, Veb-2

**Ключевые слова:** пандемия, дистанционное образование, высокие технологии, диджитал, виртуальная аудитория, обратный класс, Web-2

**Key words:** pandemic, distance education, high tech, digital, virtual classroom, reverse classroom, Web-2

Həyatımızda təhsilin əhəmiyyəti və rolu olduqca böyükdür. Elə bu səbəbdən də, təhsilimizin inkişafına o dərəcədə nail olmalıyıq ki, qarşımızda duran problemlərimizi həll edək, yaxud da gələcəkdə onların həllini reallaşdıraq. Son illər təhsilin inkişafına, problemlərinin həllinə xüsusi diqqət yetirilir, ildən-ilə bu istiqamətdə dövlət qayğısı da artır. Artıq yeniləşən təhsilimiz, bu gün bir çox göstəricilərinə görə dünyanın aparıcı dövlətlərinin təhsili ilə eyniləşdirilir. Təsadüfi deyil ki, bu gün təhsildə həm forma, həm də məzmunca ciddi dəyişikliklər gedir: beynəlxalq təcrübənin son nailiyyətlərinə əsaslanan müasir milli təhsil sistemi yaradılır, informasiyalaşdırılma prosesi gedir, rəqəmsallaşdırma önə çəkilir. Azərbaycanda təhsil sisteminin informasiyalaşdırılması elə belə baş vermir, bu prosesin gedişində yeni nəsil interaktiv avadanlaqlar (interaktiv, elektron, "ağıllı" lövhələr, məsafədən təhsili həyata keçirməyə imkan verən resurslar və s.) ilə təchiz olunma meydana gəlir ki, bunlar istər ənənəvi, istərsə də məsafədən təhsil dövründə vacib resurslar hesab olunur və hal-hazırda da mövqeyini qoruyaraq istifadə olunmaqdadır.

Pandemiya dövrü distant təhsilin bir yardım təhsili olaraq tətbiqini reallaşdırsa da, bu təhsilalma forması Təhsil Qanununda (Maddə 13) Təhsilalma formalarından biri kimi hələ 19 iyun 2009-cu ildən öz ifadəsini tapıb. Qanunla Azərbaycan Respublikasında aşağıdakı təhsilalma formaları müəyyən edilir (1).

13.1.1. əyani;
13.1.2. qiyabi;
13.1.3. distant (məsafədən);
13.1.4. sərbəst (eksternat).

Bu mənada distant təhsilin həyata keçirilməsi ölkənin təhsil sistemində yeni dəyişikliklərin yaranmasına səbəb oldu və qarşıya qoyulan əsas məqsədin reallaşdırılmasında - rəqabət qabiliyyətli kadr hazırlığında, informasiya mədəniyyətinə malik rəqəmsal insanların yetişdiril-

məsində, ölkədə vahid təhsil və informasiya mühitinin formalaşdırılmasının yeni istiqamətlərinin müəyyənləşdirilməsində xüsusi rol aldı. Bu rol yeni informasiya texnologiyalarından-İKT-dən istifadə etməklə bir sıra vacib məsələlərin həllini gündəmə gətirdi (2):

• Ölkədə təhsilin keyfiyyətinin artırılması
• Rəqabətqabiliyyətli kadr hazırlığı
• Rəqəmsal bacarıqların formalaşdırılması
• Yeni informasiya mədəniyyətinin formalaşdırılması
• Vətəndaşların bütün pillələrdə təhsil alma imkanlarının bərabərləşdirməsi
• Ölkənin təhsil sisteminin dünyanın inkişaf etmiş informasiya, mədəniyyət və təhsil məkanına inteqrasiyasının təmin edilməsi.

Mütəxəssislərin qeyd etdiyi kimi bu vacib məsələlər öz yolu ilə bir sıra bəzi tədbirlərin reallaşdırılmasına kompleks həllər tələb edir. İlk növbədə ölkənin vahid təhsil-informasiya sisteminin yaradılması bütün səviyyəli təhsil və informasiya sistemlərini, habelə təhsilin idarəetmə, servis, elmi-tədqiqat, metodiki-tədris və texnoloji mərkəzlərinin birləşdirilməsini tələb edir. İkinci, informasiya texnologiyaları sürətlə, xüsusən də, pandemiya şəraitinə uyğun olaraq distant təhsil dövründə tədris prosesinə inteqrasiya olunur. Həmçinin artıq zaman milli elektron dərsliklərin tədris prosesində tətbiqini, eyni zamanda ənənəvi dərs vəsaitləri ilə əlaqələndirilməsini, bu proseslə bağlı olaraq köməkçi metodiki vasitələrin hazırlanmasını da gündəmə gətirir və keyfiyyətin təmin edilməsinə maraq, tədris məqsədli informasiya texnologiyaları vasitələrinin standartlaşdırılması və sertifikasiyasının təmin edilməsi də bu sırada dayanır (4).

Mən bir informatika mütəxəssisi olaraq İKT vasitələrindən istifadənin, təhsilin idarə edilməsində İKT-yə əsaslanan effektiv və şəffaf monitorinq və təhlil sisteminin yaradılmasının təhsilimiz üçün faydalı olacağını düşünürəm. Çünki bu gün insanlarda rəqəmsal bacarıqların formalaşdırılması olduqca diqqəti çəkən problemdir və biz pedaqoji universitet olaraq təhsil ocaqları üçün pedaqoji sahədə İKT kadrlarının hazırlanması sisteminin yaradılmasını alqışlayırıq. Mən tədris prosesində ən yeni informasiya texnologiyalarından ən effektli təlim üsullarından istifadə bacarığının aşılanmasına xüsusi diqqət yetirirəm. Çalışıram ki, tədris prosesinin bütün iştirakçıları üçün İKT bacarıqlarına yiyələnmək imkanı yaradım. Bundan ötrü bir sıra vacib məsələlərə diqqət yetirmək lazımdır ki, görülən işin səmərəsi olsun. Öz universitetimizdə ilk olaraq təhsil müəssisəmizin müasir İKT avadanlığı ilə və İnternetə geniş zolaqlı çıxışla təmin olunmasına çalışdıq. Sonra İKT sahəsi üzrə vacib terminologiyanın tələbələrə və müəllimlərə çatdırılmasına nail olduq. İşə ilk olaraq təlimlər yolu ilə müəllimlərin, sonra isə tələbələrin maariflənməsindən, kolletivin hər bir üzvünün təhsil platformaları olan MS Teams və Zoom proqramları ilə işləmə bacarıqlarının yüksəldilməsindən başladıq. Bu resurslar vasitəsilə konfranslar, seminarlar təşkil etdik, veb-2 texnologiyası vasitəsilə testlər hazıradıq, (Learningaps, Gif), virtual auditoriyalarda müxtəlif tapşırıqlar icra etdik. Məsafədən təhsilin uğurunu təmin etmək məqsədilə informasiya texnologiyalarına əsaslanan müasir təlim üsulları ilə dərslərin keçirilməsini reallaşdırdıq. İlk olaraq dərslərə yüksək texnologiyalar daxil etdik. Biz əvvəl də təhsil sferasına daxil olan kompüter, planşet, smartfonlardan istifadə edirdik. İnternet üzərindən maraqlı dərslər quraraq dərsin əyaniliyini, sürətini, praktikliyinin artmasına nail olurduq. İndi yüksək texnologiyaların ən maraqlı təim metodu olan Tərs sinif (flipped classroom) daha motivasiyalı olur (5). Bu ideya 2007-ci ilin məhsuludur. Bu ideyanın formalaşmasının səbəbi müəllimlərin öz mühazirələrini tələbələrə əvvəlcədən göndərmək fikrindən yarandı. Bu zaman tələbələr dərsi ya vord variantında, ya video formatda, ya da internetdən götürülmüş hər hansı resurs əsasında dərsi evdə öyrənir, tapşırıqları icra edir. Xüsusən ali

məktəbdə bu modlin tətbiqi səmərəlidir. Ona görə ki, daha çox sayda tələbə bu dərsə qoşula bilir. Təklif olunan mövzunu evdə sakit və rahat mühitdə öyrənir, müstəqil öyrənmə həyata keçirilir. Müəllimin hətta tələbələrə səviyyəsinə görə material göndərmək imkanı olur (4).

Görülən işlərə rəhbərliyin idarəçilik və tənzimləmə sisteminin təmin etmək məqsədilə daxili şəbəkə qurulmasına nail olduq. Kollektivimiz ADPU-nin Davamlı təhsil və innovasiyalar şöbəsinin təşkil etdiyi öyrədici təlimlərə qoşularaq rəqəmsal bacarıqlarının artırılmasına nail oldular. Biz distant təhsilin tədrisə tətbiqinin metodikasını öyrənməklə nəzəriyyəni təcrübədən əldə edib uyğun texnologiyalarla, çap və elektron materiallarla işləməyin texnikasına yiyələndik. Xüsusən də Zoom və MS Teams proqramları ilə işləməyin metodikasına bələd olduq.

Bilirik ki, uzaqdan və ya məsafədən təhsil, fiziki cəhətdən sinif şəraitində olmayan şagirdlərə və ya tələbələrə informasiya verməyi planlaşdıran məlumat texnologiyalarından və tədris sistemlərindən asılı olan bir təhsil sahəsidir. Bu zaman məkan və zamandan asılı olmayaraq müəllimlər və tələbələr rahat olduqları, uyğun vaxtlarda ünsiyyət qururlar və hər hansı bir münasib texnologiya vasitələrindən istifadə edirlər. Aydın məsələdir ki, başlanğıcdan fərqli olaraq keçən dövr ərzində xeyli təcrübə əldə etmişik. Hazırda onlayn təhsil, tələbələrin hətta doktorluq dərəcəsi ala biləcəyi maddi və interaktiv bir öyrənmə təcrübəsi kimi qəbul edilir.[2] Biz indi virtual auditoriyalar, video konfranslar, video dərslər və digər stimullaşdırıcı Veb-2 texnologiyalarından öyrənmə perspektivləri ola bilən internet məkanından istifadə etməklə tədrisi həyata keçiririk. Əslində uzaqdan təhsil anlayışı heç də yeni bir şey deyil və məlumdur ki, ilk dəfə 1858-ci ildə London Universiteti Xarici Proqramını quraraq məsafədən təhsil həyata keçirmişdir. Yeni texnologiyaların tətbiqi məsafədən təhsil almağı həm müxtəlif qurumlar, həm də tələbələr üçün getdikcə daha populyar bir seçim halına gətirməyə nail olmuşdu[3] Hazırda internet, e-poçt, video konfrans və digər interaktiv sistemlər var ki, təhsil müəssisələrinə özünəməxsus tədris və öyrənmə üsulları ilə təcrübələr aparmağa, məkandan asılı olmayaraq lazımi mənbələrdən istifadə etməyə və hətta səyahətdə olarkən belə tədrisə müəllim və tələbələri cəlb etməyə imkan verir. Mənbələr göstərir ki, ilk Açıq Universitet 1960-cı illərin sonunda qurulan və əvvəlcə əsas metodologiyası kimi televiziya və radiodan istifadə edən Birləşmiş Krallıq Açıq Universitetidir (UKOU). İndi demək olar ki, bütün açıq universitetlər əsas tədris yanaşması kimi məsafədən təhsil texnologiyalarından istifadə edirlər (6).

Etiraf edək ki, İKT-nin tədrisə tətbiqi bir çox işlərimizi xeyli asanlaşdırdı və onlayn dərslər problemləri həll etməklə bütün mümkün rahatlığı təmin etdi. Xüsusən pandemiya dövründə öyrənənlərin dərslərdə iştirakı təmin edildi, bəzi hallar istisna olmaqla təhsil üçün çox faydalı oldu. Heç kim təhsildən yayınmadı. Artıq bir sinfə giriş imkanı çox rahat əldə edildi. Öyrənmə mühitini daha rahat hala gəldi və evlərimizin bir küncündə rahat parametrlərdən istifadə edərək məsafədən təhsilə qoşulmaq imkanı əldə etdik. Nəticədə hər kəs təhsilini inkişaf etdirmək şansına sahib oldu. Ancaq qeyd edim ki, təhsildə texnologiyanı müəyyənləşdirərkən və istifadə edərkən Beytsin 12 qızıl qaydasını bilməyin də bacarıqlarımızın təkmilləşdirilməsi üçün səmərəli olacağını düşünürəm (4).

Beytsin qaydasına görə, yaxşı tədris çox şey deməkdir və hər bir texnologiyanın cəlbedici tərəfləri var. Bu mənada təhsil texnologiyaları çevikdir və super texnologiya deyilən bir şey yoxdur. Əslində yüksək texnologiyalar vardır ki, son vaxtlar bu texnologiyaları yoxdur auditoriyalara gətirməklə tələbə-müəllim münasibətlərində xeyli müsbət irəliləyişlərə nail olmuşuq.

Hazırda Beytsin qaydalarında qeyd edilən bütün vasitələrin müəllimlər üçün əlçatan edilməsi həqiqətə çevrimişdir. Qarşılıqlı əlaqələr zəruridir tələbə-müəllim münasibətləri distant təhsildə sinxron-asinxron olaraq maneələri asanlıqla dəf edir. Bu zaman tələbələrin sayı kritik

bir ünsür olaraq qəbul edilmir, say vacib sayılmır. Qaydalarda müasir texnologiyaların köhnədən heç də yaxşı olmadığı göstərilsə də zaman texnologiyalardan qaçmağa imkan vermir və tərəqqi əslində heç də heç də qeyri adi bir şey deyil. Tərəqqi dəyişikliklər fonunda dəyişməzliyin qorunması, dəyişməzlik fonunda dəyişikliklərin aparılmasıdır. Sadəcə, müəllimlərin texnologiyadan əlverişli şəkildə istifadə etmək üçün təlimə ehtiyacları, komanda üzvü olaraq birlikdə işləmək tərəfdaşlıq etmək imkanları nəzərə alınmalıdır.

**Məqalənin aktuallığı.** Hal-hazırda dünyanı bürüyən pandemiya dövrünün distant təhsilindən, yüksək texnologiyalardan, virtual auditoriyalar, video konfranslar, video dərslər və digər stimullaşdırıcı Veb-2 texnologiyalarından öyrənmə perspektivləri ola bilən internet məkanından istifadə istifadə etməklə tədrisin həyata keçirilməsinin vacib məsələlərdən olduğunu və məqaalənin də məhz bu kimi problemə həsr edildiyini nəzərə alsaq, onu aktual hesab edə bilərik.

**Məqalənin elmi yeniliyi.** Elmi yenilik ondan ibarətdir ki, məqalədə pandemiya şəraitində universitetdə ilk olaraq müasir İKT avadanlığı və İnternetə geniş zolaqlı çıxışın təmin olunması, İKT sahəsi üzrə vacib terminologiyanın tələbələrə və müəllimlərə çatdırılması, işə ilk olaraq təlimlər yolu ilə müəllimlərin, sonra isə tələbələrin maariflənməsi, kollektivin hər bir üzvünün təhsil platformaları olan MS Teams və Zoom proqramları ilə işləmə bacarıqlarının yüksəldilməsi məsələlərinə toxunulur.

**Məqalənin praktik əhəmiyyəti və tətbiqi.** Məqalədən ali, orta ixtisas və orta ümumtəhsil məktəblərinin müəllimləri, tələbə və magistrantlar, eləcə də valideynlər istifadə edə bilərlər.

## Ədəbiyyat


1. Azərbaycan Respublikasının Təhsil Qanunu. B., 2009.
2. T. Əlizadə. Distant təhsilin əsas modelləri və metodları // ARTİ-nin "Elmi əsərləri, 2019, № 3.
3. Z. Veysova. Fəal interaktiv təlim: Müəllimlər üçün dərs vəsait. Bakı: UNİCEF, 2007.
4. http://journal.edu.az 133
5. A. Rustamova, İ. Həsənov, N. Babayev. Kurikulum. Metodika. Pedaqogika. Bakı, 25.04.2020.
6. Moore, Michael G (33-36).
7. Самари Ш.М. 2009, с. 86.


**С.Дж. Зейналова**

## Период пандемии: дистанционное обучение и применение технологий в обучении

## Резюме

Статья посвящена внедрению дистанционного обучения, высоких технологий, виртуальных аудиторий, видеоконференцсвязи, видеоуроков и других технологий, стимулирующих пандемию 21 века Web-2, с использованием Интернет-пространства, первого современного ИКТ-оборудования и предоставления широкополосного доступа к Интернету. Интернет, передавая важную терминологию ИКТ студентам и учителям, обу-

чая сначала учителей, а затем студентов посредством обучения, и улучшая способность каждого члена команды работать с MS Teams и Zoom, образовательными платформами.

**S.Dj. Zeynalova**

## Pandemic period: distance education and application of technologies in teaching

## Summary

The article deals with the implementation of distance learning, high technology, virtual audiences, video conferencing, video lessons and other stimulating Web-2 technologies of the 21st century pandemic, using the Internet space, the first modern ICT equipment and and providing broadband access to the Internet, communicating important ICT terminology to students and teachers, educating teachers first and then students through training, and improving the ability of each member of the team to work with MS Teams and Zoom, educational platforms.

**Redaksiyaya daxil olub:** 16.06.2021